**UDC:** 159.9; 616.8.
**LBC:** 88.5
**MJ №** 305
10.33864/2617-751X.2025.v8.i4.142-155

# THEORETICAL FOUNDATIONS OF RELIGIOUS CONVERSION

**Ayaz Hashimov***
**Asaf Ganbarov****

**Abstract.** The presented article primarily focuses on the theoretical foundations of religious conversion from psychological, sociological, and theological perspectives. Religious conversion is described as a complex and multifaceted phenomenon involving profound changes in a person’s religious beliefs. This change is not merely understood as the transition from one religion to another, but as a transformation within the individual’s spiritual and religious experience. At the beginning of the article, the historical context of psychology’s approach to religion and religious conversion is outlined, with specific reference to the contributions of William James and Starbuck in this field. It is also emphasized that in Western sources, the term “conversion” can refer not only to religious or spiritual transformation but also to political and social changes. In Islamic thought, the phenomenon is expressed through terms such as ihtida, hidayah, irtidad, and tawbah. The article presents and compares two main theoretical approaches: the passive and the active perspectives. According to the passive approach, the individual is not a conscious agent in the process of religious change but is influenced by divine will, subconscious processes, and social environment. This view is supported by thinkers like Leuba, Freud, and Berger. In contrast, the active approach suggests that the individual undergoes religious transformation consciously and intentionally. Roger Straus and Rambo are leading figures in this perspective. Rambo describes conversion as a multi-stage process, progressing from context to the affirmation of results.

**Keywords:** conversion, religious change, ihtida, hidayah

* Master's student in "Psychology of Religion"at the Theology Institute of Azerbaijan; Baku, Azerbaijan (corresponding author)
E-mail: ayazhasimov@gmail.com
https://orcid.org/0009-0003-8055-2322
** Doctor of Philosophy in Sociology, Associate Professor,
Associate Professor of the Theology Institute of Azerbaijan; Baku, Azerbaijan
E-mail: asefganbarov@ait.edu.az
https://orcid.org/0000-0002-6082-6029
**To cite this article:** Hashimov, A., & Ganbarov, A. [2025]. THEORETICAL FOUNDATIONS OF RELIGIOUS CONVERSION. *“Metafizika” journal*, *8*(4), pp.142-155.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i4.142-155

**Article history:**
*Received: 31.10.2024*
*Accepted: 03.03.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**УДК:** 159.9; 616.8.
**ББК:** 88.5
**MJ №** 305
10.33864/2617-751X.2025.v8.i4.142-155

# ТЕОРЕТИЧЕСКИЕ ОСНОВЫ СМЕНЫ РЕЛИГИИ

**Аяз Хашимов***
**Асаф Ганбаров****

**Абстракт.** Представленная статья в основном посвящена теоретическим основам изменения религии (конверсии) с психологической, социологической и теологической точек зрения. Явление смены религии представляет собой сложный и многогранный феномен, охватывающий глубокие изменения в религиозных убеждениях человека. Это изменение рассматривается не только как переход от одной религии к другой, но и как трансформация религиозного опыта и духовного мира индивида. В начале статьи представлен исторический обзор отношения науки психологии к религии и к феномену смены религии, где особо подчеркивается вклад Уильяма Джеймса и Старбака в эту область. Также указано, что в западных источниках термин "conversion" может обозначать не только религиозные и духовные преобразования, но также и политические и социальные изменения. В исламской мысли данное явление объясняется такими понятиями, как «ихтида», «хидаят», «иртидад» и «тауба». В статье рассматриваются и сравниваются два основных теоретических подхода: пассивистский и активистский. Согласно пассивистскому подходу, индивид не является сознательным субъектом религиозного изменения, а подвергается влиянию божественной воли, подсознательных процессов и социального окружения. Эту точку зрения поддерживают такие мыслители, как Люба, Фрейд и Бергер. Активистский подход, напротив, утверждает, что человек сознательно и целенаправленно совершает религиозное изменение. Основными представителями этой точки зрения являются Роджер Страус и Рамбо. Рамбо описывает смену религии как поэтапный процесс, который проходит через несколько стадий- от контекста до утверждения результата.

**Ключевые слова:** конверсия, смена религии, ихтида, хидаят

---

* Магистрант Азербайджанского теологического института по специальности «Психология религии»; Баку, Азербайджан (ответственный автор)
E-mail: ayazhasimov@gmail.com
https://orcid.org/0009-0003-8055-2322
** Доктор философии по социологии, доцент,
Доцент Азербайджанского института теологии; Баку, Азербайджан
E-mail: asefganbarov@ait.edu.az
https://orcid.org/0000-0002-6082-6029

**Цитировать статью:** Хашимов, Аяз., & Ганбаров, А. [2025]. ТЕОРЕТИЧЕСКИЕ ОСНОВЫ СМЕНЫ РЕЛИГИИ. *Журнал «Metafizika», 8*(4), c.142-155.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i4.142-155

**История статьи:**
*Статья поступила в редакцию: 31.10.2024*
*Отправлена на доработку: 29.11.2024*
*Принята для печати: 03.03.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**UOT:** 159.9; 616.8.
**KBT:** 88.5
**MJ №** 305
10.33864/2617-751X.2025.v8.i4.142-155

# DİN DƏYİŞDİRMƏNİN NƏZƏRİ ƏSASLARI

**Ayaz Həşimov***
**Asəf Qənbərov****

**Abstrakt.** Təqdim olunan məqalə əsasən din dəyişdirmənin (conversion) nəzəri əsasları psixoloji, sosioloji və teoloji aspektlərdən təhlilə yönəlmiş araşdırmalarını özündə ehtiva edir. Din dəyişdirmə hadisəsi insanın dini inancında baş verən köklü dəyişiklikləri əhatə edən mürəkkəb və çoxsahəli bir fenomendir. Bu dəyişiklik yalnız bir dinin digərinə keçidi kimi deyil, fərdin dini təcrübə və mənəvi dünyasında baş verən transformasiyası olaraq qəbul edilir. Məqalədə ilk olaraq psixologiya elminin dinə və din dəyişdirməyə münasibəti tarixi kontekstdə təqdim edilməsi nəzərdə tutub və bu sahədə Vilyam Ceymsin və Starbuckın əsərlərində bu mövzuya xüsusi yer verildiyi qeyd olunur. Həmçinin məqalədə Qərb mənbələrində “conversion” termini dini və mənəvi transformasiya ilə yanaşı, siyasi və sosial dəyişiklikləri də ifadə edə bilməsi, İslam düşüncəsində isə bu hadisə “ihtida”, “hidayət”, “irtidad” və “tövbə” kimi anlayışlarla izah edilməsi diqqətə çatdırılıb. Məqalədə iki əsas nəzəri yanaşma oxuculara təqdim edilir və passivist və aktivist baxışlar müqayisəli şəkildə şərh olunaraq təqdim olunur. Passivist yanaşmaya əsasən deyə bilərik ki, fərd dini dəyişiklikdə şüurlu subyekt olmayıb, ilahi iradə, şüuraltı proseslər və sosial mühitin təsiri ilə buna məruz qalır. Bu baxışı Leuba, Freyd və Berger kimi mütəfəkkirlər müdafiə edirlər. Aktivist yanaşma isə fərdin dini dəyişməni şüurlu və məqsədli şəkildə həyata keçirdiyini irəli sürür. Rocer Straus və Rambo bu yanaşmanın əsas nümayəndələrindəndir. Rambo din dəyişdirməni mərhələli proses kimi izah edir və bu prosesi kontekstdən nəticənin təsdiqinə qədər bir neçə mərhələyə ayırır.

**Açar sözlər:** konversiya, din dəyişdirmə, ihtida, hidayət

* Azərbaycan İlahiyyat İnstitutunun “Din psixologiyası” ixtisası üzrə Magistr tələbəsi; Bakı, Azərbaycan (məsul müəllif)
E-mail: ayazhasimov@gmail.com
https://orcid.org/0009-0003-8055-2322
** Sosiologiya üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan İlahiyyat İnstitutunun dosenti; Bakı, Azərbaycan
E-mail: asefganbarov@ait.edu.az
https://orcid.org/0000-0002-6082-6029

**Məqaləyə istinad:** Həşimov, A., & Qənbərov, A. [2025] DİN DƏYİŞDİRMƏNİN NƏZƏRİ ƏSASLARI. *“Metafizika” jurnalı, 8*(4), səh.142-155.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i4.142-155

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 31.10.2024*
*Təkrar işlənməyə göndərilmişdir: 29.11.2024*
*Çapa qəbul edilmişdir: 03.03.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Psixologiya elmi yaranandan bir çox mövzuları əhatə edə biləcək araşdırmalar edilmişdir. Psixoloqların maraq dairəsində olan önəmli sahələrdən biri də din sahəsidir ki, dinin insanlara olan psixi təsirini araşdırmışdırlar. Psixologiya elminin banisi sayılan Vunt, bəzi araşdırmalarında dinlə bağlı fikirlər irəli sürsə də, ancaq din psixologiyasının formalaşması Ceymsin adı ilə bağlıdır. 1902-ci ildə yazmış olduğu "Varieties of Religious experience" (Dini Təcrübələrin Növləri) adlı kitabla Din Psixologiyası Psixologiyanın bir bölməsi olaraq qəbul edildi. Ceyms bu əsərində iki fəsildə din dəyişdirmədən söz açmışdı. Bizim mövzumuzda ilk tədqiqat edən isə 1899-cu ildə Starbuk olmuşdu. Onlardan sonra isə bir çox alimlər din dəyişdirmə, dinə qayıdış kimi başlıqlarla yüzlərlə araşdırmalar etmişdirlər. Din psixologiyası sahəsində xüsusi yeri olan mövzulardan biri kimi din dəyişdirmə hadisəsi qeyd edilir. Paloutzian din dəyişdirmə hadisələrini psixologiyanın qəlbi və ruhunun təməl məqsədi olduğunu qeyd edir. Bunun da səbəbini psixologiyanın şəxsi necə dəyişdiyi ya da inkişaf edən metodların onlara necə təsir etdiyi ilə bağlı olduğunu qeyd edir [17].

## 2.Din dəyişdirmə

Din psixologiyası sahəsində ən çox araşdırma edilən mövzulardan biri də dinə qayıdış hadisəsidir. Bu hadisə özündə bir çox psixo-sosioloji cəhətləri ehtiva edir. Din dəyişdirmə hadisələri tarix boyu olmuş və bu hadisələrə diqqət yetirəndə səbəblərin müxtəli olduğu görülmüşdür. Din dəyişdirənlərin bir hissəsində psixoloji amillər olduğu kimi bir hissəsi də sosioloji amillər ilə əlaqədarır. Din dəyişdirmə bir haldan başq bir hala keçmək olduğundan, bu söz "conversion" sözü ilə ifadə edilir. Sözün ilkin mənası fiziki çevrilmə olsada sonradan mənəvi çevrilmə (dini, siyasi) mənalarında da istifadə edilir [15].

Din dəyişdirmə hadisələri araşdırılanda buna görə ilkin olaraq araşdırılan conversion sözünün əhatə edə biləcəyi mənaları olur.

Qərb mənşəli ədəbiyyatda "religious conversion" termini ilə ifadə edilən "din dəyişdirmə" və ya "dinî dəyişim" anlayışı geniş bir sahəni əhatə edir. Öz mənsub olduğu dinin ona yüklədiyi öhdəlikləri yerinə yetirməyən birinin bu davranışından imtina etməsi; özünü 'inanmayan' kimi tərif edən birinin öz cəmiyyətinin dini qaydalarını qəbul edərək dindarlaşması; və ya bir dini rədd edib başqa bir dinə inanması "conversion" sözü ilə təsvir olunur. Təyin etmə "conversion" sözünün bu geniş mənasını ortaya qoyur: "*İnsanlar inandıqları şeylər haqqında fikirlərini dəyişə bilərlər. Əgər bu dəyişiklik dini xarakter daşıyırsa, buna dini dəyişim deyilir*". Bundan əlavə siyasi və ya siyasi fikirlərdə baş verən dəyişikliklər üçün də "conversion" sözü istifadə olunur [10, s.13].

Bu söz tam və köklü dəyişiklikləri, bir haldan digərinə keçidi və bir hadisənin digər bir hadisəyə dönüşməsini ifadə edir. Psixologiya və sosiologiyada

"conversion" anlayışı, adətən siyasi, sosial və ya estetik sahələrdə bir "karyera dəyişikliyi"ni ifadə etmək üçün istifadə edilir. Psixoloji mənada isə bu söz "tam bir dəyişməyi, bir inanc sistemindən digərinə keçidi" bildirir. Dini konversiya isə; "fərqli bir dini ideala doğru, mənsub olduğu dini görüş və bağlılıqdan imtina etmək, dini inanc və davranışla bağlı yön dəyişimini də əhatə edən 'mənəvi təkamül və inkişaf" kimi təsvir olunur [12, s.290].

İslam mədəniyyətində, şəxsin dini inancında meydana gələn bu dəyişiklik və inkişaflar tövbə, hidayət, ixlas kimi ifadələrlə təmsil edilir. "İhtida" isə başqa bir dinə mənsub, bütpərəst və ya dinsiz olan bir şəxsin İslamı qəbul edib həyatını ona uyğun şəkildə tənzimləməsi vəziyyətidir. Şəxs, dini həyat tərzini qəbul edib ona uyğunlaşmağa başladıqda, birinci qrup hadisələrə "dinə qayıdış", ikinci qrup hadisələrə isə "din dəyişdirmək" demək daha uyğundur. Həmçinin, öz dinini rədd etmə, dinsiz və ya başqa bir dinə mənsub olma vəziyyəti "irtidad" olaraq adlandırılır. "Dindən dönmək" dediyimiz bu hadisələr, psixoloji baxımdan isə dini qayıdış və din dəyişdirmə hadisələrinin əks tərəfindədir [12, s.290].

Bütün insanlar və insan qruplarının son dərəcə mühüm dəyərləri, dünya görüşü və ya dünyanı daha az və ya çox nizamlı və anlaşılan bir şəkildə təqdim edən bir perspektivi vardır. Clyde Kluckhohn qeyd edib ki, bu baxış, nə qədər sadə və primitiv olsa da, "hər bir fərdin və hər bir nisbətən homojen qrupun tarixinə uyğun bir nöqtədə həyat tərzi ilə bağlı bir fəlsəfə mövcuddur." Bir insan dünyaya baxışını və ya nizamlı dünya görüntüsünü bir digərinə dəyişəndə, biz bu prosesi konversiya olaraq adlandırırıq [2, s.862].

Viliyam Ceyms bu hadisəni əsasən insanın fərdi olaraq durumu ilə əlaqələndirir. Ona görə din dəyişdirmək və ya öz dinində dindarlaşmaq, xoşbəxt olmayan və səhv yolda olduğunun fərqində olan bölünmüş şəxsiyyətin, dini reallıqlara bərk sarılaraq şüurlu şəkildə həqiqəti tapması, xoşbəxt olması və nəticədə bölünmüşlükdən xilas olaraq özü ilə birləşməsi prosesidir [13].

Rambo, bir dindən başqa bir dini ənənəyə keçişi, eyni dini ənənə daxilindəki dəyişiklikdən fərqləndirmək üçün ayrıca bir tipologiya təklif etmişdir. Təklif etdiyi bu tipologiyaya görə, bir dindən digər bir dinə keçiş üçün "traditional transition" (dini ənənələr arası keçiş) anlayışını (məsələn, İslamdan Xristianlığa keçiş kimi); kiçik bir dini qrupdan daha böyük bir qrupa keçişlər üçün qurumsal keçiş mənasında "Institutional transition" (Baptizmdən Roma Katolikliyinə keçmək kimi) anlayışını; inandığı dini ənənəyə bağlılığı artan, dini dönüşüm nəticəsində dindarlaşanları göstərmək üçün isə "Intensification" (yoğunlaşma) anlayışını istifadə edir [16, s.19].

**3.Din dəyişdirmə ilə bağlı təməl nəzəriyyə**

Din dəyişdirmə hadisəsi psixoloqların həm də sosioloqların bir çox dini hərəkatlar üzərindən etdiyi önəmli araşdırmalardan biridir. Modern

yanaşmalar içində iki əsas yanaşma üzərində durulur. Passivist yanaşma və aktivist yanaşma. Bu yanaşmaları bir birindən ayıran birinin şüurla digərinin isə şəxsin öz iradə gücündən kənar olaraq baş verməsidir.

Passivist yanaşma: Passiv fail kosepsiyası din psixologiyasında fərdin dini dəyişim prosesində özünü aktiv subyekt kimi qəbul etməməsi fenomenini təhlil edir.

Passiv fail anlayışı ədəbiyyatda Teoloji termin kimi: “qədər (predestinasiya)”, Psixoloji termin kimi “hər hansı bir şeyə meyillilik (predispozisiya)” və Sosioloji termin kimi: “determinist (deterministik)” kimi terminlərlə təyin olunur. Lakin “passiv fail” termini nə olursa olsun, - istər “Tanrı”, istərsə də “şüuraltı” olsun - şəxs özünü “aktiv fail” kimi görmür. Bu passiv fail izahında əsas məqam emosional amillərin “eqo” və ya “özün” şüurlu mənasından kənar irrasional dəyişiklikdə üstünlük təşkil etməsidir [3, s.53]. Teoloji perspektiv dəyişimin ilahi qaynağını bildirir. Yəni dəyişim ilahi iradənin nəticəsidir. Psixoloji yanaşma fərdin şüuraltı psixoloji hazırlığının rolunu diqqətə alır. Allportun daxili dinilik modeli ilə uyğunluq təşkil edir. Allport bu modeldə deyir “Daxili motivasiyalı insan dinini yaşayır, onu həyatının əsas hərəkətverici qüvvəsinə çevirir. Din özü-özünə məqsəddir, digər məqsədlər üçün vasitə deyil” [4, s.53]. Sosial baxış isə determinizm dairəsində sosial mühitin təsirini analiz edir. Bergerin “sacred canopy” nəzəriyyəsi buna uyğundur. “Din, sosial dünyanın üzərində müqəddəs bir günbəz (canopy) inşa edərək, xaos və mənasızlıq qorxusuna qarşı qalxan təmin edir. Bu 'nomos' (nizam) qurma prosesi, əsasən, insan tərəfindən həyata keçirilən dünya-inşası fəaliyyətidir” [5, s.25]. Bununla şəxs qeyd edilən qorxuya qarşı din seçimini etmiş ola bilir.

Psixologiya elminin ilkin mərhələsinin tədqiqatçılarından olan Leuba din dəyiştirmə hadisəsini passiv olaraq qeyd edir. “Din dəyişdirən şəxs fəal deyil, daha çox passivdir; nə aydın şəkildə başa düşdüyü, nə də müvəffəqiyyətlə müqavimət göstərə bildiyi bir qüvvə tərəfindən ələ keçirilir” [6, s.189]. Freyd isə hər bir davranışın əsasən şüuraltı tərəfindən motivasiya olunduğunu vurğulayır.

“Passiv Fail” görüşü əsasən klassik tədqiqatçıların üzərində dayandığı nəzəriyyədir. Ancaq son dövrün araşdırmaları bu görüşün yetərli olmadığı qənətindədirlər. Müasir araşdırmlar din dəyişdirmə hadisəsini şüurlu şəkildə aktiv olaraq baş verdiyi görüşünü də irəli sürürlər.

Aktiv yanaşma: bu yanaşmada şəxs aktiv və zehni qabiliyyəti vasitəsi ilə araşdıraraq din dəyişdirmə və ya dini dəyişim edir. Bir çox müasir tədqiqatçı, din dəyişdirən şəxsin özünün aktiv fail olduğu görüşünü paylaşır. Rocer Straus insanı aktiv və məna axtarışında olan varlıq hesab edən görüşə əsaslanaraq “axtarış” və ya “yaradıcı dəyişim” modeli təklif edir. Richardsona görə, Strausun “yaradıcı dəyişim” modeli din dəyişdirmə prosesində insana aktiv fail

kimi yanaşan ilk araşdırmadır ([3, s.55]. Strausa görə "Konversiya passiv təcrübə deyil, fərdlərin şüurlu araşdırma və təcrübələr vasitəsilə yeni mənalar və kimliklər qurduğu aktiv, yaradıcı bir prosesdir" [7, s.160].

İnsanı passiv kimi qəbul edən passivist yanaşmanın əksinə, bu aktivist yanaşmanın əsas xüsusiyyətləri aşağıdakı kimi sıralana bilər:

1.Şəxs özü aktiv, şüurlu və axtaran faildir;

2.Bu baxımdan din dəyişdirmə prosesi emosional deyil, ağıllı və intellektual bir səydir;

3.Din dəyişdirmə bir dəfə baş verib sona çatan bir hadisə deyil, mərhələli şəkildə həyata keçir;

4.Bu təcrübə adətən ilk yetkinlik dövründə baş verir;

5.Bu təcrübə üçün sabit bir prototip yoxdur [3, s.56].

Passiv və aktiv dəyişim bir-birindən fərqləndirən başqa fərqləri isə passiv dəyişim ani və duyğulu faktor olması, aktiv dəyişimin isə bir neçə gün, ay hətta bir neçə il ərzində davam edə bilər. Aktiv dəyişim intellektual və koqnitiv faktorlarının olmasıdır.

**4.Dini dəyişkliyin növləri**

**4.1.**İnanılan Dini Yaşama Sıxlığında Müşahidə Olunan Dəyişikliklər (Daxilən): İnsan inandığı dini müxtəlif dərəcələrdə yaşaya bilər. Bir şəxs hər hansı bir dinin dəyərlərinə sadəcə inanaraq qala biləcəyi kimi, inandığı dəyərləri tam şəkildə həyata keçirərək dini həyatını qurmaq da mümkündür. Hətta inandığı dini yaşama səviyyəsində müxtəlif mərhələlər də nəzərə çarpabilir. İnsan inandığı dini yaşama mövzusunda müxtəlif səbəblərə görə yüksəlişə keçib dini yaşantısını tədricən intensivləşdirə biləcəyi kimi, müəyyən səviyyədə yaşadığı dini həyatdan uzaqlaşaraq dindarlıq baxımından eniş də yaşaya bilər. Bunlardan birincisini Meadow və Kahoae'nin istifadə etdiyi terminlərlə ifadə etsək, "yenidən bütövləşmə" (reintegration) və ya öz dinində dindarlaşma; ikincisini isə dini bütövlüyün pozulması adlandıra bilərik.

Öz dinində dindarlaşmanın tipik nümunəsi, adi dini yaşantıdan təsəvvüfi dini həyata keçid edən Qazalinin təcrübəsində müşahidə edilə bilər. Qərb ədəbiyyatında isə Paskalın təcrübəsi bu mövzuda misallardan biri kimi qeyd olunur. Bu tip dini dəyişimdə dini fəaliyyətlərdə artım müşahidə edilə bilər, lakin əsas dəyişiklik ənənəvi dini münasibətlərdən daha dərin bir dini həyata keçidlə baş verir.

**4.2.**Bir dindən başqa bir dinə keçmək: əvvəl ki dinindən tamamilə mtina edib, başqa bir dini qəbul etməsidirə;

**4.3.**İnancsızlıqdan Dine Keçid (Xaricdən-Daxilə): Daha əvvəl heç bir dinə inanmamış bir şəxsin müəyyən bir dinə inanması və ona bağlanması, xaricdən-daxilə bir dini dəyişimi ortaya qoyur.Məşhur sənətkar Cem Karaca bu vəziyyətə nümunə olaraq göstərilə bilər. O, bir çox insan tərəfindən qəbul edilməyəcəyini bilsə də, ideologiya və inanc xəttini dəyişdirmişdir. Karaca bir

söhbətində deyib: “*Əvvəllər qara və ağ var idi, amma indi mən boz rənglərdəyəm... Hələ də solçuyam, amma eyni zamanda inanclıyam da*”.

**4.4.**Dindən Tamamilə Ayrılma (Daxildən-Xaricə):* İnandığı və yaşadığı dini dəyərləri tərk edərək özünə dindən uzaq bir həyat fəlsəfəsi seçən və əvvəl inandığı dinin etiqad əsaslarını, ibadətlərini – qısacası hər şeyini rədd edən bir şəxs bu dəyişimin nümunəsini təşkil edir. Dini dəyişim həmişə dinə yönəlməklə baş vermir; bəzən dindən uzaqlaşma şəklində də reallaşa bilər.

**5.Din dəyişdirməyə təsir edən faktorlar**

Din dəyişdirmə hadisəsi qeyd edildi ki, aktiv və passiv dəyişim olaraq həyata keçir. Bu proses bir neçə psixo-sosial faktorlrın baş verməsi ilə baş verir ki, bu faktorlar din dəyişdirmədə və ya dini dəyişim etməkdə əsas faktorlar hesab edilir. Din dəyişməyə təsir edən faktorların bir hissəsi şəxsin daxili aləmində baş verən dəyişikliklərlə bağlıdırsa, digər bir hissəsi isə xaricdən gələn sosial faktorlarla bağlıdır.

**5.1.İnanılan dindən qane olmama**

Şəxs olduğu dində öz ehtiyaclarının qarşılana bilmədiyini düşünür. Arzu və istəklərinin qarşılanmadığından daxili aləmində gərginliklər yaşaya bilər. Bununlda aradan gedən hüzursuzluq və artan gərginlik, fərdin olduğu dindən qane olmaması ilə nəticələnir.

Klarka görə dəyişən şəxsin ən əsas psixoloji elementinin gərginlik olduğunu bildirir. Onun fikrincə, “dini dəyişimə yönəlmiş şəxsdə gərginlik, müəyyən nöqtəyə qədər şüursuz şəkildə, daha sonra qismən şüurlu olaraq böyüyür və inkişaf edir. Şəxsin dini əsaslarla bağlı şübhələri davam etdiyi müddətcə gərginlik artır və ruhən doyum tapmadığı üçün böhrana düşür” [8, s.152]. Beləliklə də bu böhrandan çıxış yolu özünü qane edə biləcək bir dinə keçid ilə nəticələrin.

**5.2.Xoşbəxt olmayan uşaqlı dönəmi**

Uşaq həyatla bağlı bütün təlim və əsas bacarıqları ilk növbədə ailədə qazanır. Buna görə də ailədə aldığı təlim və ya uşaqlıq dövründə yaşadığı müsbət və mənfi təcrübələr, fərdin sonrakı həyatında həm sosial həyatında, həm də dinlə əlaqəsində təsirli olur. Məsələn, bir çox psixoloq, ailədəki narahatlıqların uşağın dini təcrübələrinin inkişafını şüursuz şəkildə təsir etdiyindən bəhs edir. Qərbdəki yeni dini hərəkatlara qoşulanlar üzərində aparılan araştırmalar göstərir ki, bu hərəkatlara əsasən öz ailələrinə yad olan və həyatları nizamsız olan gənclər daha çox üstünlük təşkil edirlər. Ullman (1989) dörd fərqli qrupdan din dəyişdirən və ya dinə daxil olan 40 nəfər üzərində apardığı araşdırmada, bunların din dəyişdirməyənlərlə müqayisədə daha bədbəxt bir uşaqlıq dövrü keçirdiklərini tapmışdır [9, s.145]. Kösenin İngltərədə İslam dinini qəbul edənlər üzərində etdiyi araşdırmada isə respondetləri ümumilikdə normal və xoşbəxt uşaqlı dönəmi keçirdikləri nəticəsini əldə etmişdir [10, s.64].

**5.3.Atasız böyümə və ya əhəmiyyət verməyən ata**

Bəzi psixoanalitik tədqiqatlar, dinə yönəlmə və din dəyişdirmə hadisəsinin “yardımçı”, “qoruyucu”, “güclü” ata hissini yaşamayan insanlara bu hissi verdiyini irəli sürür. Məsələn, Allison öz dini ilə əlaqədar dəyişiklik yaşayanlar üzərində apardığı tədqiqatda, sınaq qruplarının təxminən 60%-ının atalarının evləri ilə maraqlanmayan, alkoqolik və ya intihar edən insanlar olduğunu müəyyən etmişdir. Bunun üzərinə Allison, dinə yönəlmənin “zəif”, “effektiv olmayan” və ya “olmayan ata” imicini kompensasiya etdiyini və dinin insana dəqiq və güclü prinsiplər təmin edərək atanın yerini aldığını iddia edir [9, s.146].

**5.4.Başqa dinə bağlı olan şəxslərlə əlaqə**

Başqa Dinə Bağlı Şəxslərlə din mövzularında müzakirə etmək fərdin, başqa dinə bağlı şəxslərlə əlaqəsi zamanı onlarla dini mövzularda müzakirələrə başlaya bilər. Müzakirəyə girən şəxs, dini mövzulardakı inancını təhlil edib gücləndirmə, bu mövzuların düzgünlüyünə dair dəlil göstərmə ehtiyacı hiss edir. Qarşısındakının düşüncəsinə təsir göstərmək məqsədilə sərf etdiyi cəhdin uzantısı olaraq dini mövzularda məntiqi mühakimə edir [11, s.206].

Bu şəxslərin sosial ətrafı ilə bağlı olan bir haldır. Başqa dinə mənsub olan bir kəsin dedikləri, verdiyi cavablar fərdin şüurunda yeni izlər qoya bilər. Beləliklə də, fərd yeni din seçib, o dinə daxil ola bilər.

**5.5.Başqa dinə bağli bir şəxslə evlənmə**

Başqa dinə bağlı bir şəxs ilə evlənən şəxs, ya evlənərkən, ya da evləndikdən sonra dinini dəyişir. Bu cür din dəyişdirmələrdə aşağıdakı motivlər təsirli olur: Bir-birilə evlənmək istəyən tərəflərdən biri digərinə, evlənə bilmələri üçün öz dininə dönməsinin lazım olduğunu deyə bilər. Belə bir vəziyyətlə qarşılaşan şəxs, ya mövcud dinini tərk edərək evlənəcəyi şəxsin dininə dönəcək, ya da o şəxslə evlənə bilməyəcək. Bu halda, əgər fərdin evlənəcəyi şəxsə qarşı duyduğu sevgi və evlənmə ilə əldə etməyə çalışdığı dəyərlər, inanmaqda olduğu dini dəyərlərdən daha üstün gəlirsə, mövcud dinini tərk edərək həyat yoldaşının dininə dönər [11, s.212].

**5.6.Günahkarlıq və günah hissi**

Müxtəlif vəziyyətlərdə şəxsin etdiyi səhvlər və törətdiyi pisliklərə görə narahatlıq hiss etməyə başlaması, dərin peşmanlıqla bu vəziyyəti düzəltmək üçün həyatına yeni bir istiqamət və nizam verməyi şiddətlə arzu etməsi, dəyişimin vacib amillərindən biridir. Bu tip hallarda çox vaxt hidayətdən əvvəl şəxsdə varlığını hiss etdirdiyi şüuraltı dini meyllərin izini tapmaq mümkündür. Şübhəsiz ki, insanın öz günahkarlığının şüuruna çatması və bu vəziyyətdən narahat olub peşmanlıq hiss etməsi, dəyişimi təmin edən yeganə müəyyənedici amil deyildir [12, s.294].

**5.7.Dramatik təcrübələr**

Qəza, həps, xəstəlik, çox sevilən bir kəsin ölümü kimi dramatik hadisələr dini dəyişim etməyə səbəb ola bilər. Bu kimi hadisələrin verə bildiyi

sarsıntıdan sonra bəzən şəxs öz həyatına anlam qatmaq üçün dini dəyişim etməyi çıxış yolu kimi seçə bilir. Ancaq bu hər kəsdə eyni olmur. Bəzən də olur ki, bu cür dramatik hadisələrdən sonra tam əksinə dindən küsərək uzaqlaşma hadisələrid baş verə bilir [12, s.297].

**6.Din dəyişdirmə ilə əlaqəli edilən elmi araşdırmalar**

Qeyd edildiyi kimi psixologiya elmi formlaşandan bu günə kimi din dəyişdirmə hadisəsi xüsusi araşdırılan mövzulardan biri olub. Bir çox tədqiqatçılar bu sahədə araşdırmalar edərək, əhəmiyyətli nəzəri fikirlərin qənaətinə gəlmişdirlər. Bu hissə də edilən elmi araşdırmalardan bir neçəsi qeyd ediləcəkdir.

**6.1.Viliyam Ceyms “Dini təcrübənin növləri”**

Din dəyişdirmə ilə bağlı edilən ilk araşdırma elə din psixologiyasının ilkin təməlini qoyan Viliyam Jeymsin adi ilə bağlıdır. O, 1902-ci ildə yazdığı “The Varieties of Religious Experience” Dini Təcrübələrin Növləri adlı əsəri ilə Din Psixologiyasının əsasını qoymuşdur. Bir çox bölmələrdən ibarət olan bu kitabın iki bölməsi din dəyişdirmə ilə əlaqədardır. Jeyms öz kitabında bu mövzu ilə əlaqədar iki bölmə 9 və 10-cu bölmələrdə araşdırma etmişdir.

Jeyms dəyişimi şəxsin daxili aləmi ilə əlaqədar edir. Ona görə dəyişim; şəxsin depresif, sıxıntılı ruh halından çıxıb, rahatlıq, hüzuru tapma, və özünü tapması hadisəsi olaraq dəyərləndirir. Sağlam insan daxili mənliyin hüzurlu və barışıq olması ilə bəlli olur. Ceyms parçalanmış mənliyin və xəstələnmiş ruha sahib olan fərdin dəyişim edərək bu halından qurtula biləcəyi görüşündədir [1, s.354]. O, bu düşüncələrini öz kitabında vakalar üzərində nümunələr göstərərək sübut etməyə çalışıb. Stefan.H.Bardley adlı bir şəxsin hekayəsindən nümunə göstərərək deyir: bu vakanı xüsusi ilə seçdim, burada qeyd edilən şəxsiyyət daha əvvəldən sanki varlığını bilmədiyimiz bir sıra təbəqə və qabıqdan olduğu kimi, bu daxili dəyişikliklər zamanı bir dərinliyin altından necə başqa bir dərinliyin çıxdığını göstərir [13, s.203].

**6.2.**"Din Psixologiyası" adı ilə çıxan ilk kitabın müəllifi E. D. Starbuck, "Din Psixologiyası" adlı əsərində, 72 kişi və 192 qadın iştirakçının şəhadətlərinə istinad edərək, din dəyişdirmə hadisəsinin müəyyən bir yaş aralığında cərəyan etdiyini və qadınların çoxunun 13 yaşında, kişilərin isə əsasən 16 yaşında bu dini transformasiya prosesindən keçdiyini müşahidə etmişdir. Starbuckun bu tədqiqatı, "din dəyişdirmə mövzusunda həyata keçirilən ilk və nəzərəçarpacaq dərəcədə əhəmiyyətli təcrübi araşdırmalardan biri" kimi tanınır [3, s.42].

**6.3.**Leon Salzman 1953-cü ildə yazdığı "The Psychology of Religious and Ideological Conversion" (Dini və İdeoloji Din Dəyişdirmənin Psixologiyası) adlı əsərində din dəyişdirmə kateqoriyalarını təhlil etmişdir. William James kimi, Salzman da din dəyişdirməni iki qrupa ayırır:

***6.3.1.***İnkişafçı (proqressiv) və ya Yetkinləşmə (maturational) din dəyişdirmə.

***6.3.2.***Regressiv (geriyə dönük) və ya Psikopatoloji (psychopathological) din dəyişdirmə.

Salzmanın nəzəriyyəsinə görə, inkişafçı din dəyişdirmə, fərdin əqli axtarışları nəticəsində köhnə inanc sistemindən daha məntiqli və üstün hesab etdiyi yeni bir sistemə keçid etməsidir. Bu proses şüurlu qərar və yeni məna axtarışı ilə bağlıdır.

Regressiv din dəyişdirmə isə daha çox daxili qarşıdurmalar, həyatda qarşılaşılan ağır problemlər və emosional böhranlar nəticəsində yaranır. Bu, şiddətli psixoloji gərginliklə əlaqədar olub, daha çox emosional və qeyri-sabit keçid xarakteri daşıyır [3, s.45].

**6.4.**Lofland; Rodney Stark: "Dünya Xilaskarı olmaq: Marjinal Perespektivə Konversiy Nəzəriyyəsi

Bu məqalədə yazarlar şəxlərin alternativ dini hərəkatlara (kültlərə) qoşulmasından danışırlar. Yeddi mərhələli model üzərində təhlil edilir.
6.4.1.Gərginlik hissi: Fərddə mövcud sosial və ya psixoloji narahatlıq hissi.
6.4.2.Problemin təqibi: Bu gərginliyin müəyyən bir problem kimi tanınması.
6.4.3.Həll axtarışı: Problemin həlli üçün yolların araşdırılması.
6.4.4.Dini təcrübə ilə təmas: Yeni dini hərəkət və ya qrup ilə qarşılaşma.
6.4.5.Əlaqə yaratmaq: Yeni dini qrupun üzvləri ilə şəxsi əlaqələrin qurulması.
6.4.6.Xarici əlaqələrin azalması: Köhnə sosial əlaqələrin zəifləməsi və yeni qrupla daha çox vaxt keçirmə.
6.4.7.Tam üzvlük: Yeni dini qrupa tam inteqrasiya və dəstək [2], [13].

Bu araşdırma, dinlərarası təcrübələr, inanc sistemləri və fərdi dönüşüm proseslərini nəzərdən keçirən mühüm bir işdir. Məqalə, xüsusən, insanların dini inanc və ya mənəvi perspektivlərində keçirdikləri dönüşümləri və bu prosesin necə baş verdiyini anlamaya yönəlmişdir.

**7.Məqalənin əsas mövzuları arasında aşağıdakılar yer alır:**

**7.1.Paradigm Conflict (Paradiqma münaqişəsi):**

Richardson, insanların dünyagörüşü və ya inanc sistemlərinin dəyişməsini təsvir edən paradiqma münaqişəsini müzakirə edir. Bu münaqişə, fərdin əvvəlki inanc sistemindən yeni bir inanca keçişi ilə əlaqəli yaranan daxili qarşıdurmalardır. İnsanlar, əvvəlki inanc sistemini və yeni inancı bir-biri ilə qarşılaşdırdıqda və bu iki fərqli dünyagörüşü arasında bir mübarizə yaşadıqda bu paradiqma münaqişəsi meydana gəlir.

**7.2.Types of Conversion (Dönüşüm növləri):**

Richardson, dönüşümün müxtəlif növlərini təhlil edir. Burada söhbət yalnız dini dəyişikliklərdən getmir, həm də fərdlərin həyat tərzlərini, dəyərlərini və davranışlarını dəyişdirməklə bağlı daha geniş bir anlayışdan gedir. Dini dönüşüm, şəxsi və ya sosial təsir nəticəsində baş verən dönüşümlər kimi müxtəlif formalar ala bilər.

**7.3.Conversion Theories (Dönüşüm nəzəriyyələri):**

James T.Richardson, müxtəlif dönüşüm nəzəriyyələrini təqdim edir və onları nəzərdən keçirir. Bu nəzəriyyələr, fərdlərin dini inanc və ya həyat tərzindəki dəyişikliklərin necə baş verdiyini izah etməyə çalışır. Məsələn, "sosial şəbəkə nəzəriyyəsi" və "psixoloji nəzəriyyələr" kimi yanaşmalar dönüşüm prosesini izah edən fərqli perspektivlər təklif edir.

Bu məqalə, dini və mənəvi dönüşümün mürəkkəb təbiətini anlamağa çalışan bir çox sosial elmi nəzəriyyənin mövcudluğunu göstərir və bu sahədəki akademik müzakirələri zənginləşdirir. Richardson, müxtəlif təcrübələrin və nəzəriyyələrin müsbət və mənfi tərəflərini şərh edərək, dönüşümün baş vermə şərtlərini və bu prosesin insanlar üzərindəki təsirlərini araşdırır [13].

Bundan əlavə din dəyişdirmə ilə əlaqədar bir çox araşdırmalar aparılmışdır. Avropa və Abş tədqiqatçıları bu mövzu ilə bağlı bir çox elmi tədqiqatlar aparmış və nəzəriyyələr irəli sürmüşdürlər. Eyni zamanda Türkiyədə də bu mövzuya psixoloqlar tərəfindən xüsusi yer verilmişdir. İlkn dəfə Hüseyn Peker 1979-cı ildə "*Din Değiştirmenin Psiko-sosial Etkenleri*" adlı emprik araşdırma etmişdir. Ali Köse daha sonra İngiltərədə İslamı qəbul edən inglislər üzərində emprik araşdırma aparmışdır. "Neden İslamı Seçiyorlar" adı ilə yazılan bu çalışma Türkiyədə bu mövzuda yazan araşdırmaçılar üçün xüsusi isnad yeri olaraq istifadə edilir. Ali Köse həmçinin "İhtida" adlı bir məqaləsi də vardır. Bundan əlavə Heon Choul Kim "Din Değiştirmenin Entelektüel Arka Plan" doktrantura çalışmsıda Türkiyədə yazılmışdır. Həmçinin Hüseyin Çertelin "Suçlularda Dine Dönüş" adlı araşdırmasıda diqqət çəkən araşdırmalardandır. O bu araşdırmasını məhkumlar ilə aparmışdır. Günahı dinə dönməyə səbəb ola biləcək bir faktor olaraq göstərmişdir. O, qeyd edir ki, günah hissi dinə dönməmişdən əvvəl artıq fərdi motivasiya edə bilir [14, s.39] Bu günə qədər bir çox magistr və doktrant bu mövzu ilə bağlı yazılarını müdafiə etmişdir.

**8.Nəticə**

Din dəyişdirmə hadisəsi göründüyü kimi elə də asan hadisə deyil. Din dəyişdirmə hadisəsi insanın həyatını bütünlüklə əhatə edə biləcək önəmli qərardır. Bu qərarın veerilməsinə qədər insanın həyatında bir çox proseslər gedir. Bu proseslər həm psixoloji, həm də sosioloji amillər ola bilər. Bu amillər ümumilikdə şəxsin din dəyişməsinə vəya dinə qayıdış etməsində önəmli rola malikdir. Din dəyişdirmə hadisəsi eyni zamanda insanın yeni şəxsiyyət qazanması, sosial mühitində ola biləcək dəyişikliklər, dinin psixi sağlamlığa təsiri, mədəni dəyişim və s kimi bir çox dəyişikliklərlə nəticələndiyi üçün bir çox alimlər conversion hadisəsini müxtəlif aspektlərdən yanaşaraq araşdırmalar etməyə çalışmışdırlar. Araşdırmaların bir çoxunda diqqət yetirdikdə əldə edilən nəticə budur ki, din dəyişdirmə hadisəsi asan hadisə olmasada insanların həyatında müəyyən psixo-sosial dəyişikliklərə nəticələnir. Ancaq bəzən də olur ki, din dəyişdirmədəsəbəb ola biləcək hər hansıs bir hadisə tam əksi ilədə nəticələnə bilir.

## ƏDƏBİYYAT

**1.** Asan, S. (2023). Din Değiştirme Konusunda Ortaya Konulan Bilimsel Yaklaşımlar. *İnsan ve Toplum Bilimleri Araştırmaları Dergisi*, 351–372.
**2.** Lofland, J., & Stark, R. (1965). Becoming a World-Saver: A Theory of Conversion to a Deviant Perspective. *American Sociological Review*, *30*(6), 862–875.
**3.** Kim, H. C. (2003). *Din Değiştirmenin Arka Planı*. Kaynak Yayınları.
**4.** Allport, G. W. (1950). *The Individual and His Religion: A Psychological Interpretation* (p.53). Macmillan.
**5.** Berger, P. L. (1967). *The Sacred Canopy: Elements of a Sociological Theory of Religion* (s.25).
**6.** Leuba, J. H. (1912). *A Psychological Study of Religion* (s.189). New York: Macmillan.
**7.** Straus, R. (1979). Religious Conversion as a Personal and Collective Accomplishment. *Sociological Analysis*, *40*(2), 158–165.
**8.** Clark, W. H. (1958). *The Psychology of Religion: An Introduction to Religious Experience and Behavior* (p.152). Macmillan.
**9.** Köse, A., & Ayten, A. (2022). *Din Psikolojisi*. Timaş Yayınları, 137–171.
**10.** Köse, A. (2019). *Neden İslamı Seçiyorlar*. İz Yayıncılık.
**11.** Peker, H. (2021). *Din Psikolojisi*. Çamlıca Yayınları, 201–223.
**12.** Hökelekli, H. (1992). *Din Psikolojisi*. Türkiye Diyanet Vakfı Yayınları, 290–303.
**13.** Richardson, J. T. (1988). Paradigm Conflict, Types of Conversion, and Conversion Theories. *Sociological Analysis*. Retrieved from http://dx.doi.org/10.2307/3710915
**14.** Certel, H. (2009). *Suçlularda Dine Dönüş*. Nobel Yayın Dağıtım.
**15.** Britannica.com.
***16.*** Cayır, C. (ts). *Türkiyədə din dəyişdirib xristianlığa keçişin psixo-sosial amilləri.*
**17.** Paloutzian, R. F. (2013). Din Değiştirme ve Manevi Dönüşüm: Bir Sistem ve Anlam Analizi (Trans. Celal Çayır). In *Din ve Maneviyat Psikolojisi* (s.97). Phoenix.

## REFERENCES

**1.** Asan, S. (2023). Scientific approaches presented regarding religious conversion. *Journal of Humanities and Social Science Research*, 351–372. (in Turkish)
**2.** Lofland, J., & Stark, R. (1965). Becoming a world-saver: A theory of conversion to a deviant perspective. *American Sociological Review, 30*(6), 862–875. (in English)

**3.** Kim, H. C. (2003). *The background of religious conversion*. Kaynak Publishing. (in Turkish)
**4.** Allport, G. W. (1950). *The individual and his religion: A psychological interpretation* (p.53). Macmillan. (in English)
**5.** Berger, P. L. (1967). *The sacred canopy: Elements of a sociological theory of religion* (p.25). (in English)
**6.** Leuba, J. H. (1912). *A psychological study of religion* (p.189). New York: Macmillan. (in English)
**7.** Straus, R. (1979). Religious conversion as a personal and collective accomplishment. *Sociological Analysis, 40*(2), 158–165. (in English)
**8.** Clark, W. H. (1958). *The psychology of religion: An introduction to religious experience and behavior* (p.152). Macmillan. (in English)
**9.** Kose, A., & Ayten, A. (2022). *Psychology of religion*. Timash Publishing, 137–171. (in Turkish)
**10.** Kose, A. (2019). *Why do they choose Islam?* Iz Publishing. (in Turkish)
**11.** Peker, H. (2021). *Psychology of religion*. Chamlica Publishing, 201–223. (in Turkish)
**12.** Hokelekli, H. (1992). *Psychology of religion*. Turkish Religious Foundation Publishing, 290–303. (in Turkish)
**13.** Richardson, J. T. (1988). Paradigm conflict, types of conversion, and conversion theories. *Sociological Analysis*. Retrieved from http://dx.doi.org/10.2307/3710915 (in English)
**14.** Certel, H. (2009). *Religious return among offenders*. Nobel Publishing. (in Turkish)
**15.** Britannica.com. (in English)
**16.** Cayir, C. (n.d.). *Psycho-social factors in conversion to Christianity in Turkey*. (in Turkish)
**17.** Paloutzian, R. F. (2013). Religious conversion and spiritual transformation: A systems and meaning analysis (Trans. by C. Cayir). In *Psychology of religion and spirituality* (p.97). Phoenix. (in Turkish)